**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 204 (1572) 4 noyabr 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

**"Muğam gözəlliyin və məhəbbətin rəmzidir"**

***Mehriban Əliyeva***

**Heydər Əliyev Fondunun təşəbbüs və dəstəyilə keçirilmiş II Muğam Müsabiqəsinin qaliblərindən biri də Güllü Muradovadır. Həvəslə dinlədiyim, şövqlə qulaq asdığım, həm zahirən, həm ruhən kamilliyi ilə göz oxşayan Güllü xanımın musiqi aləmində, muğam dünyasında ayrıca yeri var.**

bir səbəbi də incəsənətə, muğam dünyamıza dövlət səviyyəsində diqqət və qayğının məhz zamanında göstərilməsi oldu. Bəllidir ki, heç bir fidan böyüyüb bəhrə verməz, heç bir pöhrə budaq olmaz - əgər ona vaxtında qayğı göstərilməsə. İllah da ki ola muğam sənəti. Muğam sənəti sevir ki, onun nazını çəkəsən. Necə deyərlər, muğamla yaşayasan, ruhunu bütünlüklə ona verəsən. Güllü xanımın özü də belə deyir: "Muğam gərək



# Vəfalı bülbülüyəm, baği-gülşənimdir Vətənim...



Ən başlıcası, o, heç kəsə bənzəmir. Özündən əvvəlki və müasiri olan müğənniləri, xanəndələri təqlid etmədən sənət yollarında irəliləyir. Və onun sənətə bu münasibəti Güllü Muradovanın ifalarında da öz hökmünü diktə etmiş olur.

Belə ki müğənninin daxili aləmindən gələn nəfəslər, üzə çıxan müxtəlif musiqi çalarları, muğam naxışları onun ifasını bəzəyir, dinləyicisini ovsunlayıb sehrə salır. Onu da deməliyik ki, Güllü xanımla eyni dövrdə, eyni zamanda sənət aləminə bir çox istedadlı gənc də gəldi. Özü də bu istedad dalğası sakit axarla, aramla deyil, sanki bir qasırğa kimi muğam sənətimizi, musiqi aləmimizi bürüdü. Bunun əsas qəlbin dərinliklərindən gəlsin". Burda bir məqamı da qeyd etmək istəyirəm. Müğənni və xanəndə ifadələri eyni anlama gəlsə də, mahiyyətcə fərqləri də olmamış deyil.

Məncə, xanəndə daha nüfuzlu səslənir və daha sanballı ifadədir. Elə buna görə də Güllü xanıma xanəndə deyə müraciət etmək istəyirəm. Ekrana, efirə çıxdığı ilk günlərdən onun ifasını sevmişəm.

İfasıyla şəxsiyyəti tamlıq, bütünlük təşkil edir. Əsl Azərbaycan, türk xanımına xas olan qaməti, siması, xarakterik keyfiyyətləri, səhnə mədəniyyəti var.

Olduqca sadə görünən xanəndənin dünyası yetərincə zəngin təəssürat bağışlayır. Onun zənginliyi sadəliyindən su içib - desəm, yanılmaram. Axı yerində, qaydasında olan sadəlik gözəllikdir. İnsanın ömrünə zinət verən daim parlayan bir naxışıdır.

Bəxtəvər o kəs deyil ki, var-dövləti başından aşır, bəxtəvər həm də o kəsdir ki sadəliyi göz qamaşdırır.

Güllü Muradova bizim Lökbatan qəsəbəsində böyüyüb. Yeniyetmələr, gənclər Güllü Muradovanın muğam aləmində tanınmağa başladığı vaxtlarda çox böyük fəxrlə, qürurla "o, bizim qəsəbənin, bizim məhəllənin, bizim məktəbin yetirməsidir" deyirdilər. Amma sonralar eşitdik ki, onlar bizim qəsəbədən köçüblər. Bizim üçün heç vaxt köçməyən, yaddaşımızda, qəlbimizdə yaşayan Güllü Muradovanın səsidir, hər zaman harda, hansı ünvanda yaşamasından asılı olmayaraq onu bizə xatırladır.

Ondan soruşanda ki, haralısan? Sadəcə "Qarabağlıyam, atam Ağdamın Gülablı kəndindən, anam aran bölgəsindəndir" - söyləyir. Danışığında, nitqində heç bir artıq ifadəyə, sözə yer qoymayan xanəndə həm də qeyri-adi təvazökarlığı ilə yadda qalır.

Sənət müəllimləri - Arif Babayevi, Cabir Abdullayevi, eləcə də bir çox klassik sənətkarlarımız haqqında ehtiramla, hörmətlə danışır. Təəssüfləndiyi məqamlar da çoxdu. Ona təəssüflənir ki, doğma kəndi, ana diyarı Ağdamın Gülablısını görməyib. Çox təəssüf edir ki, həyatdan erkən köçmüş böyük xanəndə Səxavət Məmmədovla bir zamanda doğulmayıb.

Güllü xanım təkcə xanəndə kimi yox, həm də bir vətənpərvər, bir Vətən aşiqi kimi ekrandan, efirdən tamaşaçıya əvəzsiz hiss və duyğular aşılamaqla bu qədim və müasir sənəti daha da gözəlləşdirir.

Ən çox sevib ifa etdiyi muğamlardan biri "Seygah"dır. "Mahur" və "Şahnaz" təsniflərini də böyük ilhamla ifa edir. Xanəndə həm bəstəkar, həm də xalq mahnılarının ifaçısı kimi hər bir zövqlü tamaşaçıya muğamın sirrini açır, hər briimizlə muğam diliylə danışa bilir.

Musiqi tariximizdə "Qarabağ şikəstəsi"nin özünəməxsus ifaçıları olub. Güllü xanım bu yolu, bu ənənəni istedadla davam etdirir və paralel olaraq öz dəst-xəttini, üslubunu da ortaya qoya bilir. Təkrar edirəm, "Segah"ı, "Mahur"u, "Şahnaz"ı, "Mirzə Hüseyn" segahını, "Simayi-Şəms"i öz ruhunun köynəyindən keçirdiyi kimi, digər bir çox muğamların da öhdəsindən bacarıqla gəlir.

Alim Qasımovla oxuduğu "Dəşti" muğamı da musiqisevərlər tərəfindən maraqla qarşılandı. Bu barədə Güllü xanım belə deyir:

**"Alim Qasımov mənim kumirimdir. Mən onun sənətinin vurğunuyam, onun daxili dünyası, insanlarla ünsiyyət bacarığı və yüksək mənəviyyatlı insana xas gözəlliyinə heyranam. O həmişə xoş zarafat edən, rahat, çox həssas, dərin, zəngin daxili aləmi olan insandır.**

**Mən onun İctimai Televiziyada Adil Məlikovla apardığı ustad dərslərin birini də buraxmırdım.**

**Bilirsizmi, bəzən elə olur ki, oxumağın daşını birdəfəlik atmaq istəyirsən. Amma elə ki ekranda Ustadın tanış simasını görürsən, başa düşürsən ki, əgər o hər şeyə sinə gərə bilibsə, sən də bacaracaqsan. Daxilən yenidən doğulursan, yenə də muğama qərq olmaq istəyirsən, Odlar ölkəsinin sərvətini, əcdadlarımızın əsrlərlə qorunub saxlanmış bu böyük sənətini sən də yaşatmaq istəyirsən. Ustad Alim Qasımovla birgə ifama gəlincə, bu, mənimçün həyat iksiri, ilham çeşməsi, güc mənbəyidir".**

**(ardı gələn sayımızda)**

**Fariz Çobanoğlu**